# Fransa demokratiyanın deyil, müstəmləkəçiliyin beşiyidir

## Olimpiya Oyunları bu ölkənin bütün çirkinliklərini üzə çıxardı

Milli Məclisin deputatı Anar İsgəndərov qəzetimizə açıqlamasında təəssüflə qeyd edib ki, Fransada keçirilən Yay Olimpiya Oyunlarında bu hal müşahidə olunmadı. Birincisi, Olimpiya Oyunlarının açılış mərasimində fransız aparıcılar Azərbaycanı böhtan yağışına tutaraq, ermənilərə ürəklərində yer ayırdılar.

Belə hərəkətlər, bu cür düşüncələr dövlətə hörmət gətirə bilməz. Fransa hardan biləydi ki, Ermənistanı darmadağın edən Azərbaycan Parisdə də öz qalib sözünü deyəcək, üçrəngli bayrağımızı qaldıracaq və dövlət himnimizi səsləndirəcək. Hidayət Heydərovun fransalı cüdoçu üzərində qələbəsi Parisin minillik tarixinə Azərbaycan zəfərini yazmağı məcbur etdi. 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransının Ali Şurası Azərbaycan Cümhuriyyətini de-fakto tanıdığı kimi, 2024-cü ilin Parisi də Azərbaycanı qalib dövlət kimi tanımağa məcbur edildi.

7

# Fransa demokratiyanın deyil, müstəmləkəçiliyin beşiyidir

## Olimpiya Oyunları bu ölkənin bütün çirkinliklərini üzə çıxardı

"Tarix boyu Olimpiya Oyunları keçirilən dövrdə bütün müharibələr, münaqişələr dayandırılıb, sülh və əmin-amanlıqla bağlı mahnılar oxunub, insanlar şənlənib və idman yarışları yüksək əhvali-ruhiyyədə keçirilib. Harada Olimpiya Oyunları keçirilibsə, bu yarışlar xalqlara əmin-amanlıq, sevinc gətirməli, ən azından azarkeşlik hissini oyatmalı idi".



Milli Məclisin deputatı Anar İsgəndərov qəzetimizə açıqlamasında təəssüflə qeyd edib ki, Fransada keçirilən Yay Olimpiya Oyunlarında bu hal müşahidə olunmadı. Birincisi, Olimpiya Oyunlarının açılış mərasimində fransız aparıcılar Azərbaycanı böhtan yağışına tutaraq, ermənilərə ürəklərində yer ayırdılar. Olimpiya Oyunlarında heç vaxt belə fikirlərin yer almadığını qeyd edən müsahibimiz bildirib ki, belə hərəkətlər, bu cür düşüncələr dövlətə hörmət gətirə bilməz: "Fransa hardan biləydi ki, Ermənistanı darmadağın edən Azərbaycan Parisdə də öz qalib sözünü deyəcək, üçrəngli bayrağımızı qaldıracaq və dövlət himnimizi səsləndirəcək. Hidayət Heydərovun fransalı cüdoçu üzərində qələbəsi Parisin minillik tarixinə Azərbaycan zəfərini yazmağı məcbur etdi. 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransının Ali Şurası Azərbaycan Cümhuriyyətini de-fakto tanıdığı kimi, 2024-cü ilin Parisi də Azərbaycanı qalib dövlət kimi tanımağa məcbur edildi".

Fransızların Olimpiadada xristian dinini təhqir etdiyini xatırladan müsahibimiz deyib ki, onlar sonradan bunu etiraf edərək üzr istəyiblər. Səmavi dinlərin hər birinin müqəddəs və toxunulmaz olduğunu vurğulayan A.İsgəndərov bildirib ki, Olimpiya Oyunları çərçivəsində dinləri təhqir etmək, dini ayrı-seçkiliyi təbliğ etmək heç bir dövlətə başucalığı gətirmir. "Bütün bunlar göstərir ki, vaxtilə Fransa dövləti ilə bağlı təbliğ olunan fikirlər yanlış imiş. Sən demə, Fransa demokratiyanın deyil, müstəmləkəçiliyin beşiyidir. Fransa necə demokratiya beşiyi ola bilər ki, özündən dəfələrlə böyük müstəmləkələrə malikdir. İşğal etdiyi ərazilərin xalqlarına qarşı dünyanın ən qəddar cəza tədbirlərini həyata keçirib və bu davam edir. Fransızların Mərakeş, Əlcəzair və Tunisdə insanlıq əleyhinə törətdikləri işgəncələr milyonlarla insanın ölümünə və şikəstliyinə səbəb olub. Bu tarix heç vaxt açıq göstərilməyib. Amma Fransanın əsl üzü budur. Min illər boyunca Fransa səlib yürüşlərində, müstəmləkə müharibələrində milyonlarla insanı məhv etdiyi halda, bu tarix yazılmayıb. Yazılanlar isə Bastiliya qalasının alınması, Napoleon Bonapartla bağlı əfsanələr idi. Əslində, Napoleonun işğalları o dövrdə diqqətdən kənarda qalıb, şəxsiyyəti göylərə qaldırılıb və onun işğalçılıq siyasəti tarixə qəhrəmanlıq kimi yapışdırılıb. Bu da yanlış addım idi", - deyə o bildirib.

Deputat vurğulayıb ki, Fransanı bizə Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü daha çox tanıdıb. Bu ölkəni ədalətli bilib ATƏT-in Minsk qrupunun həmsədri olmasına razılıq verməklə illər ərzində fransalı həmsədrlərin ermənidən daha çox erməniliklərinin şahidi olduq. Olimpiadanın açılış mərasimində həm Azərbaycana, həm də xristian dininə qarşı nalayiq hərəkətləri Fransanın iç üzünü bir daha göstərdi. Bütün bunlar həm Olimpiya tarixinə kölgə saldı, həm də fransızların tarix boyu qazandığı imicə zərbə vurdu.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 3 avqust (№ 163).- S.1, 7.